UOT:80

# BƏDİİ DİLDƏ SİNTAKTİK YOLLA DÜZƏLƏN ADLARIN ƏMƏLƏGƏLMƏ ÜSULLARI

***Prof. Quliyev Telman Ziyadxan oğlu, dos.Cəfərova Solmaz Axund qızı***
***Gəncə Dövlət Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:** *Sintaktik yolla düzələn adların əmələgəlmə üsulları Q.Təbrizinin əsərlərində öz rəngarəngliyi ilə diqqət çəkir. Q.Təbrizi öz şeirlərində klassik üsluba mənsub leksik vahidlərlə yanaşı, xalq dili sözlərindən istifadə etməklə kifayətlənməmiş dildəki mövcud sintaktik vasitələrdən istifadə edərək, yeni söz və ifadələr də yaratmışdır.*

*Məqalədə Q.Təbrizinin əsərlərində işlənən sintaktik yolla düzələn adlar araşdırılır. Burada müxtəlif mənalı sözlərin birləşməsindən, eyni sözlərin təkrarından, yaxın mənalı sözlərin birləşmələrindən, antonim sözlərin yanaşmasından düzəlmiş mürəkkəb sözlər (adlar) qruplaşdırılır. Bunlarla yanaşı Q.Təbrizinin şeirlərində komponentləri alınmalardan ibarət olan müxtəlif mənalı sözlərin birləşməsindən yaranan mürəkkəb adlar da şərh olunur. Məqalədə qeyd olunan mürəkkəb adlara aid kifayət qədər nümunələr göstərilir.*

**Açar sözlər:** mürəkkəb sözlər (adlar), müxtəlif və yaxın mənalı sözlərin birləşməsindən düzəlmiş adlar, eyni sözlərin təkrarından düzəlmiş adlar, antonim sözlərin yaranmasından düzəlmiş adlar.

**Ключевые слова:** сложные слова ( имена ), существительные, образованные из сочетания с разных и близких по значению слов, существительные, образованные в результате повторения одних и тех же слов, существительные, образованные в результате образования антонимов

**Key words:** compound words (names), nouns formed from a combination of different and similar words, nouns formed as a result of repetition of the same words, nouns formed as a result of the formation of antonyms.

Sintaktik yolla düzələn adların əmələgəlmə üsullarını Q.Təbrizinin şeirləri üzrə nəzərdən keçirək. Q.Təbrizinin dilində işlənmiş mürəkkəb sözlər (adlar) nəinki iki müxtəlif sözün bir-biri ilə əlaqəyə girərək vahid bir anlayışı ifadə etməsidir, eyni zamanda, fonetik və qrammatik cəhətdən tamamilə formalaşmış mürəkkəb leksik vahidlərdir.

Q.Təbrizinin dilindəki adlardan ibarət mürəkkəb sözlər aşağıdakı üsullarla yaranmışdır.

1.***Müxtəlif mənalı sözlərin birləşməsindən düzəlmiş mürəkkəb sözlər (adlar).***

Bu qəbildən olan sözlərin içərisindən öz poetik məqamına, emosionallığına və təbiiliyinə görə seçilən bir sıra mürəkkəb sözləri müşahidə etmək mümkündür.

**Dərdçəkmişlər** _bilirlər əhli-dərdin halını (8.74)
Bu **dilbilməzləri,** yarəb, giriftar et, xəbərdar et (8.22)
**Qanıdolmuşlar**_kimi aram bulmaz bir nəfəs (8.132)

Bir **üzübağlı, gözübağlı,**_şikarəm, ah, ah (8.146)
İmdad **qaragünlülərə**_yaxşıdır səfa (8, 162)
Fəğan ki, halimə el **daşbağırlı** rəhm etməz (8.26)

Substantivləşmiş sifətlərin ekvivalenti kimi çıxış edən və ismi frazeoloji vahid səviyyəsinə qalxan **dərdçəkmişlər, dilbilməz, üzübağlı, gözübağlı, qaragünlü, qanıdolmuşlar, daşbağırlı**_kimi mürəkkəb sözlər Q.Təbrizinin lirik qəhrəmanının vəziyyətini ifadə etmək üçün əlverişli vasitəyə çevrilmişdir. Bu birləşmələrin maraqlı cəhətlərindən biri onların komponentlərinin bəzilərinin mənsubiyyət şəkilçili olmasıdır.

Q.Təbrizinin şeirlərində müxtəlif mənalı sözlərin birləşməsindən yaranan mürəkkəb adların bir qismini də komponentləri alınmalardan ibarət olan sözlər təşkil edir.

Təriqi-eşqdə olmazmı, **həmsəfər,**_yarəb (8.19)
**Sərvqədlər** çeşmimə xari-səri divardır (8.106)

Hanı ol **bəxtrəsa** kim, kakili-müşkin kimi,
Ya öpüm hərdəm ayağın, ya dolanım başına (8.16)
Bağrımı qan etdi qəm, ey yari-**səngindil,** inan (8.20)
Aləmdə bu gün aşiqi –**xununcigər** azdır (8.57)
Ol **ayinəru**_ayinəmin sildi ğübarin (8.104).

Əlbəttə, belə birləşmələrin, demək olar ki, hamısı Q.Təbrizi dövrü, eləcə də klassik şeir üçün norma olmuş, müasir ədəbi dilimizdə işləklikdən qalmışdır.

***2.Eyni sözlərin təkrarından düzəlmiş mürəkkəb sözlər (adlar).***

Danışıq dilində daha çox işlənən bu cür sözlər bədii əsərlərin dilində sadəlik yaratmaqla fikrin qüvvətli və emosional ifadəsinə xidmət edir. Q.Təbrizinin dilində ədəbi dil üçün orijinal, yeni semantik çalarda işlənmiş bu qəbil mürəkkəb sözlər daha çox təsvir, hərəkət, gözəllik davranışı ilə bağlı olduğu üçün əksər hallarda isim, sifət və sayların təkrarı ilə yaranmışdır. Eyni söz_köklərinin təkrarl ilə düzəlmiş mürəkkəb sözlər şairin əsərlərində müxtəlif vasitələrlə yaranmışdır.

**a) Sintaktik üsulla düzəlmiş adlar.**_Bu üsulla sözlər heç bir sözdəyişdirici və sözdüzəldici şəkilçi qəbul etmədən təkrar olunmuş və mürəkkəb leksik vahidlər əmələ gəlmişdir.

Hər təbibin **acı-acı**_pəndin ey bimar eşit! (8.20)
**Zərrə-zərrə**_olur ol şöliyi-rüxsarə fəda (8.15)
Sinəmi **göz-göz**_zireh tək etdi peykanın sənin (8.132)
Bal açub pərvanələr **bir-bir**_vurarlar şam tək (8.17)
Könüldə qönçələnir **cahan-cahan**_fəryad,
Dilin bu vəchdən eylər **zaman – zaman**_fəryad (8.27)

**b) –ba, -bə, -a, -ə bitişdiriciləri ilə formalaşmış adlar**

Bu şəkilçilər həm türk, həm də ərəb və fars mənşəli eyni söz köklərinin arasında bitişdirici vasitə kimi çıxış edərək mürəkkəb söz yaratmışdır.

**Dəmbədəm**_gənci-gövhər etməyə memarə fəda (8.15)
Bəsmi degil bu **kəşməkəş** zalım, üzüldü canımız (8.66)
**Sərbəsər** rövzeyi-rizvan sənin olsun, zahid (8.102)
Sanma kim, bihudə odlandım, **sərapa** şəm tək (8.82)

**c) Eyni köklərin müxtəlif şəkilçi qəbul etdikdən sonra birləşməsi ilə yaranan adlar.**

**Yerli-yerdən**_siz, ey ərbabi-tərəb, vari durun (8.134)
Əgərçi bir neçə gün xar zəhmətin çəkdin,
Vəli ey oldu **günün-gündən** ey həzar bu il (8.97)
Bilməm neçin **oddan-oda, dildən-dilə**_düşdüm (8.110)
Məcnun olub ol Leyliyi-aləm tələbindən,
**Evdən-evə, çöldən-çölə, eldən-elə**_düşdüm (8.110)

Bu mürəkkəb sözlərin hamısı ümumxalq dilində geniş yayılmışdır. Q.Təbrizinin dilində qeydə alınmış **günün – gündən** birləşməsi adi danışıqda **günü –gündən**__şəklində işlənməkdədir.

***3.* Yaxın mənalı sözlərin birləşməsindən düzəlmiş mürəkkəb sözlər (adlar).**

Bu qəbil mürəkkəb sözlərdən də Q.Təbrizi dilində geniş istifadə olunmuşdur.

Nəsimi –hərzəfərəs gərçi **dağə -daşə**_düşər (8.19)
Çünki heyrət **əl-ayağım**_bağlamış zəncir ilən (8.116)
**Ayü-gün**_rəyincə vü əflak fərmanıncadır (8.33)
**Qaşü-gözdür,**_ya ləbi-şəkkər fəşandır, ya nədir (8.55)
Bu gün mənim **gözü –könlümdən**_ayrı gün dövri-fələk. .....(8. 63)

Bu mürəkkəb leksik vahidlərdən **ayü-gün, qaşı-göz, gözü-könül**_birləşmələri həmin formada Q.Təbrizinin əsərlərində klassik janrın tələblərinə görə işlədilmişdir. Ümumxalq,

eləcə də müasir ədəbi dilimizdə həmin mürəkkəb sözlər **ay-gün, qaş-göz, göz-könül** şəklində işlədilir.

***4.*** **Antonim sözlərin yanaşmasından düzəlmiş mürəkkəb sözlər (adlar).**

Gəlir **sağü-solunda** hurivəşlər ol mələk, Qövsi (8.34)
Görmə, saqi, cam üçün **əldən-ayaqdan** getdiyim (8.39)
Bilməz ki, **bu gün –danla** pərişan olacaqdır (8.51)
Pərvanə yaxar **var-yoxunu** bir oda yetsə (8. 53)

Məlumdur ki, antonim sözlər, hadisələr, əşyalar arasında zidd cəhətləri əks etdirmək, bununla da ifadə olunan fikri daha qabarıq vermək üçün əlverişli vasitədir. İki əks məna birləşib bir semantik məzmun bildirdikdə isə həm bədii təsir etibarı ilə qüvvətli, həm də məna dəqiqliyi ilə seçilən leksik vahid yaranmış olur. Buna görə də yazıçı və şairlərimiz əsərlərində fikrini daha əhatəli vermək üçün bu vasitədən tez-tez istifadə edirlər. Məsələn, Q.Təbrizi "Pərvanə yaxar **var-yoxunu** bir oda yetsə" –deyəndə **yox** sözü **var** leksik vahidi ilə birləşir və həmin sözün **(var)** mənası daha da konkretləşir, bu iki leksik vahid birlikdə daha geniş məzmun bildirir.

***Ədəbiyyat***


1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 1964
2. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960
3. Ərəb və fars sözləri lüğəti. Bakı, 1966
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973
5. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. 1 c. Bakı, 2012
6. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990
7. Mirzəzadə H.Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962
8. Təbrizi Q. Seçilmiş əsərləri. Bakı, 1958


## МЕТОДЫ ФОРМИРОВАНИЯ СУЩЕСТВИТЕЛЬНЫХ В ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ СИНТАКСИЧЕСКИМ СПОСОБОМ

**Гулиев Телман Зиядхан оглы, Джафарова Солмаз Ахунд кызы**

***Резюме***

Методы формирования существительных синтаксическим способом в произведениях Г. Табризи привлекают внимание своим разнообразием. В своих стихотворениях Г. Табризи создавал новые слова и выражения с лексическими единицами классического стиля, наряду с этим не удовлетворяясь существующими словами, выраженными народным языком использовал синтаксические средства языка.

В статье также исследуются имена формированные синтаксическим методом, использованные в произведениях Г. Тебризи. Здесь сгруппированы сложные слова (названия), образованные сочетанием слов с разным значением, повторением одних и тех же слов, сочетаниями слов со схожими значениями, образованные в результате образования антонимов. Кроме того, в стихотворениях Г. Табризи интерпретируются и сложные имена, образованные сочетанием слов с разным значением, компоненты которых состоят из приобретенных. В статье приводится ряд примеров сложных имен.

## METHODS FOR THE FORMATION OF NOUNS IN A LITERARY LANGUAGE IN A SYNTACTIC WAY

***Guliev Telman Ziyadxan, Jafarova Solmaz Axund***

***Summary***

Methods of forming nouns in a syntactic way in the works of G. Tabrizi attract attention with their diversity. In his poems, G. Tabrizi created new words and expressions with lexical units of the classical style, while not being satisfied with the existing words expressed in the folk language, he used the syntactic means of the language.

The article also examines the names formed by the syntactic method used in the works of G. Tabrizi. Complex words (names) are grouped here, formed by a combination of words with different meanings, repetition of the same words, combinations of words with similar meanings, formed as a result of the formation of antonyms. In addition, in G. Tabrizi's poems, complex names are also interpreted, formed by a combination of words with different meanings, the components of which consist of acquired ones. The article provides a number of examples of complex names.

***Rəyçi: dos. Aidə Həsənova***
***Azərbaycan dili kafedrasının 12 fevral 2021-ci il tarixli 06 saylı prokolu***
***Daxil olma tarixi: 15 fevral 2021-ci il***

**UOT: 811.111**

## DEVELOPMENT OF LISTENING SKILLS IN TEACHING ENGLISH

***Mammadzadeh Natavan Yusif, Jalilova Turkan Muzadil***
***Ganja State University***
***calilovat@mail.ru***

**Annotation:** *In today's world, teaching students to be effective, active listeners is a vital task. In an environment of quick click, constant scrolling, pithy sound bites, the ability to be fully present to the people speaking around us is a significant skill to develop. But that is just it: it is a skill to be mastered and constantly worked on; it requires plenty of practice to fully develop the effective habits of a good listener. As teachers, we need to provide students with opportunities to discuss, exchange ideas, and listen meaningfully; we also need to give them the tools to do so effectively.*

*There are countless reasons why learning to become a good listener is important: not just in terms of developing critical thinking abilities, but also learning to be an empathetic human being. Some such reasons include (but are not limited to) the following:*

- *When we listen effectively, we open ourselves up to opportunities for learning and* ***personal growth****.*
- *As good listeners, we improve our ability to* ***think critically****, by being able to fully engage in a more informed way.*
- *Displaying the attributes of a good listener makes space for others to be able to express themselves openly, helping to* ***build relationships*** *and exchange ideas.*
- *True listening helps* ***avoid misunderstandings****, and limits the potential for just talking past one another.*
- *When really listening to the thoughts and ideas of others, we can* ***develop empathy*** *and compassion.*

**Key words:** listening, listening skills, listening materials,

**Açar sözlər:** dinləmə, dinləmə bacarıqları, dinləmə materialları

**Ключевые слова:** прослушивание, навыки прослушивание, материалы для прослушивания.

(Almost) every lesson should provide students with ample opportunities to exercise their listening skills. Whether it is through listening to instructions and lectures, paired conversations, class discussions, or media experiences: students should be encouraged to actively listen to others, over and over again. Yet, more importantly, they should be regularly reminded, when doing so, that they need to be exercising the skills of a good listener, and they should be reflecting on their own skill development in this area.